# Milli Məclisdə TBMM nümayəndə heyəti ilə görüş keçirilib

**Oktyabrın 14-də Milli Məclisin Elm və təhsil komitəsi və Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupu ilə Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyəti arasında görüş keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Səhiyyə komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov bu cür görüşlərin və qarşılıqlı səfərlərin ölkələrimiz arasında olan qardaşlıq münasibətlərinin inkişafına xidmət etdiyini deyib. Komitə sədri Ulu Öndər Heydər Əliyevin Azərbaycanla Türkiyə arasında əlaqələrin möhkəmləndirilməsinə böyük əhəmiyyət verdiyini xatırlayıb, Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın dostluğu sayəsində münasibətlərimizin strateji müttəfiqlik səviyyəsinə yüksəldiyini vurğulayıb.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov ölkələrimiz arasında olan yüksəksəviyyəli əməkdaşlığın elm və təhsil sahəsində də məmnunluq doğurduğunu qeyd edərək, bu sahədə əlaqələrin inkişaf etdirilməsi ilə bağlı fikirlərini bildirib.



TBMM-in Milli təhsil, mədəniyyət, gənclik və idman komitəsinin sədri Mahmut Özer, Azərbaycanla dostluq qrupunun rəhbəri Şamil Ayrım və Şimali Kipr Türk Cümhuriyyəti ilə dostluq qrupunun rəhbəri Orhan Erdem Azərbaycan parlamentinin deputatlarını VII çağırış Milli Məclisə seçilmələri münasibətilə təbrik ediblər və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar. TBMM-in üzvləri ölkələrimiz və parlamentlərimiz arasında əməkdaşlığın getdikcə daha da möhkəmlənməsindən məmnunluqlarını bildiriblər, bu əlaqələrin daha da şaxələndirilməsinin əhəmiyyətini qeyd ediblər.

Görüşdə Milli Məclisin Hesablayıcı komissiyasının sədri Eldar Quliyev, Elm və təhsil komitəsinin sədr müavini Fariz İsmayılzadə, Azərbaycan-Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Cavanşir Feyziyev, deputatlar Əziz Ələkbərov, Ağalar Vəliyev, Mehriban Vəliyeva, Fatma Yıldırım, Anar Məmmədov və Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı çıxış ediblər, iki ölkə arasında dinamik inkişaf edən dostluq və qardaşlıq münasibətlərinin regionda və dünyada sülhün və əməkdaşlığın möhkəmlənməsinə xidmət etdiyini bildiriblər.

***"Azərbaycan"***

Azərbaycan.- 2024.-15 oktyabr (№ 226).- S.4.